**İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə *700* manat məbləğində müavinət müəyyən edilsin.[1]

2. Müəyyən edilsin ki, bu qərarın 1-ci bəndi ilə bağlı maliyyələşdirmə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.[2]

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 17 iyun 2006-cı il
152

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 may 2010-cu il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 476**)
2. 3 avqust 2012-ci il tarixli **170** nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 7 avqust 2012-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 08, maddə 821**)
3. 4 iyun 2019-cu il tarixli **256** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 iyun 2019-cu il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1145)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 may 2010-cu il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 476**) ilə 1-ci bənddə "**şərti maliyyə vahidinin 30 misli**" sözləri "**200 manat**" sözləri ilə əvəz edilmişdir.

3 avqust 2012-ci il tarixli **172** nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 7 avqust 2012-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 08, maddə 821**) ilə 1-ci hissəsində "**200**" rəqəmi "**400**" rəqəmi ilə əvəz edilmişdir.

4 iyun 2019-cu il tarixli **256** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 iyun 2019-cu il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1145)** ilə 1-ci hissədə "**400**" rəqəmləri "**700**" rəqəmləri ilə əvəz edilmişdir.

[2] 27 may 2010-cu il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 476**) ilə 2-ci bənd 3-cü bənd hesab edilmişdir və 2-ci bənd əlavə edilmişdir.